# Uşağın qəlbi



■ Herman Hesse

*əvvəli ötən saylarda*

**Birinci dəfə idi ki, mən bütün qəddarlıqla, söyüşlə bu cür dalaşırdım. Adətən böyük zövq və qorxu içində bu kobud lənətləmələri, söyüşləri tamaşaçı qismində eşidirdim. Bu gün isə mən özüm o cür sözləri boğazımı gərə-gərə deyirdim. Sanki uşaq yaşlarımdan buna adət etmiş və öyrəncəli olmuş kimi görünürdüm. Gözlərimdən yaş, dodaqlarımdansa qan damcılamasına rəğmən, həyat əla, mənalı, yaşamaq və dalaşmaq, özünün və başqasının qanını axıtmaq gözəl idi.**

Dəfələrlə bu davanın sonunu xatırlamaq istəsəm də, cəhdlərim boşa çıxırdı. O, nə vaxtsa bitmiş, mən evləri, küçələrin döngələrini tanımış, evimizin yaxınlığında olanda isə özümə gəlmiş və nə vaxtsa sakit otaqda tək qalmışdım. Kefim yavaş-yavaş durulurdu. Qanadlarımın fiti və gurultu sakitləşirdi. Və həqiqəti dərk etməyə, görməyə başlayırdım. Bu quyudur. Bu da körpü. Əllərim qanlı, paltarım cırıq, corablarım süzülmüş, dizlərim və gözlərimdə ağrı vardı. Papağımsa itmişdi. Yavaş-yavaş hər şey həqiqətə çevrilir və mənə doğru gəlirdi. Birdən özümdə dözülməz bir yorğunluq hiss etdim. Əllərim, dizlərim əsirdi. Söykənməyə divar axtarırdım ki, yıxılmayım.

Və birdən evimizi gördüm. Şükür Allaha! Ora sülh dolu, işıqlı və təhlükəsiz bir sığınacaq idi. Böyük bir yüngüllüklə nəfəs dərib hündür qapını itələdim.

Burada məni daş qoxusu və rütubətli və sərin xatirələr bürüdü. Aman Allah! Burda ciddilik, qanun, məsuliyyət, ata və Allah qorxusu vardı. Mən oğurluq etmişdim. Döyüş qəhrəmanı, anasının dizlərində təsəlli və rahatlıq tapacaq yazıq bir uşaq deyildim. Mən oğru idim, cinayətkar idim. Orada - yuxarıda məni sığınacaq, isti yataq, şirin yuxu, yemək, nəvaziş, təsəlli, əfv gözləmirdi. Məni günahımın nəticəsi və çəkəcəyim cəza gözləyirdi.

Həmin an o qaralıq dəhlizdə və çətinliklə qalxdığım üçün pilləkənlərdə mənə ilk dəfə təkliyin, taleyin soyuq qoxusu gəldi. Mənim heç bir çıxış yolum, planım, qorxum yox idi. Sadəcə bir hissim var idi: "Belə olmalıdır!" Sürahidən yapışaraq yuxarı qalxdım. Şüşəli qapının önündə ayaq saxlayıb nəfəs dərdim ki, bir az sakitləşim. Lakin bunun mənası yox idi. Heç nə eləmədim. İçəri girmək lazım idi. Daxil olanda fikirləşdim ki, görəsən saat neçədir?

Qonaq otağına keçdim. Onlar masanın ətrafında əyləşmişdilər. Yeməklərini təzəcə yeyib bitirmiş, alma yedikləri boşqabları isə hələ heç yığışdırmamışdılar. Təxminən saat səkkiz idi. Mən heç vaxt icazəsiz evə belə gec gəlməmişdim, həmişə şam yeməyində masa arxasında olmuşdum.

- Şükür Allaha! - anam dilləndi. Onun məndən ötrü nigaran qaldığını başa düşdüm. Yanıma qaçaraq gəlib üzümü, çirkli, cırılmış paltarlarımı görüb donub qaldı. Mən heç nə demədim, heç kimə də baxmadım. Lakin atamla anamın baxışdığını hiss etdim. Atam özünü toplayaraq necə əsəbi olduğunu biruzə vermədi. Anam mənlə məşğul oldu, əl-üzümü yudu, yeməyimi verdi. Mən sevgi və qayğı ilə əhatə olunmuşdum. Susub qəlbimin ən dərininə qədər utancaqlıq və vicdan əzabı hissiylə bu mehrdən zövq alırdım. Sonra məni yatmağa yolladılar. Üzünə baxmadan əlimi atama uzatdım.

Mən artıq çarpayımda olanda anam yanıma gəldi. Stula yığılmış paltarlarımı yeniləri ilə əvəz etdi. Axı sabah bazar günü idi. Sonra məni sakitcə sorğu-suala tutdu və mən dalaşdığımı ona danışmalı oldum. Bunları rəzalət kimi qəbul etsə də, qorxu içində olduğumdan təəccübləndi. Sonra o getdi.

İndi hər şeyin öz qaydasında olduğundan əmin idim. Hər halda bu cür düşünürdüm. Mən mübahisəni yumruqla həll etmiş və qanım çıxana kimi döyülmüş olsam da, bütün bunlar sabah unudulacaqdı. Əsas işdən onlar bixəbər idilər. Onun qanı qaralsa da mənimlə mehriban davranırdı. Həmçinin də atam. Deməli hələ heç nədən xəbərləri yox idi.

Və indi məni dəhşətli bir peşmançılıq hissi bürüdü. Evə girdiyim andan ürəyimdə bir şeyi arzulayırdım. İstəyirdim ki, məhkəməm tez baş tutsun, olacaqlar olsun artıq və onun qarşısında keçirdiyim bu qorxu hissi bitsin. Mən hər şeyə hazır idim. Qoy məni ən ağır tərzdə cəzalandırsın, həbs etdirsin! Qoy məni aclıqla hədələsin! Qoy lənətləsin, evdən qovsun! Təki bu qorxu, təki bu gözləmə müddəti bitsin ta!

Bunun əvəzində indi məni əzizləyib, qayğı göstərirdilər. Sanki əfv olunmuş kimi yatağımda uzanmışdım. Və mən yenə də gözləməli oldum. Onlar hətta paltarlarımın cırıldığını da bağışladılar, evdə olmamağımı da, şam yeməyinə gəlməməyimi də, hamısını bağışladılar. Yorğun olduğuma, yaralarımdan qan axdığına, mənə yazıqları gəldiyinə görə bağışladılar. Axı onlar ancaq bu əməllərimi bilirdilər, cinayətlərimisə yox. Bunun üstü açılanda cəzam iki qat olacaq! Bəlkə də məni islah koloniyasına göndərərlər. Bir dəfə məni bununla hədələmişdilər. Orada uşaqları boyat çörəklə qidalandırır, bütün boş vaxtları isə odun yardırıb, ayaqqabı təmizlədirdilər. Deyilənə görə orada ümumi böyük yataq otaqları var. Nəzarətçilərsə uşaqları çubuqla döyür, hər səhər saat dörddə soyuq su ilə yuxudan oyadırlar. Nə bilmək olar? Bəlkə də məni polisə verəcəklər.

Hər necə olacaqsa olsun indi ancaq gözləməliyəm. Mən bundan sonra da qorxu içində öz sirrimlə baş-başa, evdəki hər baxışdan, hər addımdan xoflanaraq heç kimin üzünə baxa bilmədən yaşamalıyam.

Bəlkə də mənim bu oğurluğum heç gözə çarpmadı. Onda hər şey olduğu kimi qalacaq? Çəkdiyim bu həyacan və əzab əbəs yerədir? Kaş ki belə olardı, kaş ki möcüzə baş verərdi, mən tamamilə yeni bir həyata başlardım. Allaha şükür edərdim, göstərərdim ki, mən də səhvsiz, ləkəsiz yaşaya bilirəm. Buna əvvəllər cəhd etsəm də alınırdı. Lakin indi çəkdiyim bu qədər əzabdan, yaşadığım bu cür cəhənnəmdən sonra mənim buna mütləq gücüm və iradəm çatardı. Fikrim bu arzumda qalmışdı. Təsəlli səmadan yağış kimi yağdı. Gələcək göz önümdə mavi şəfəq kimi açıldı. Bu cür fikirlə mən bütün gecəni şirin-şirin yatdım.



Səhəri gün bazar idi. Hələ yatağımdaca bazar gününün gözəlliyini hiss edirdim. Məktəbli olandan bəri onun ayrıca ləzzəti vardı. Bazar səhəri - əla olur! Doyunca yatmaq olar, məktəb yoxdur, mütləq yaxşı nahar edəcəyik, müəllimlərdən və mürəkkəblərin iyindən uzaqda, bol asudə vaxtın var! Əsas budur! Digər zəif notlar da səslənirdi, daha yad və daha darıxdırıcı notlar - kilsə, bazar günü məşğələsi, ailəvi gəzinti və s. Bu cür şeylərə görə bu gözəl günün bir balaca dadı itirdi. Bu, sanki iki yeməyin bir yerdə verilməsinə, məsələn pudinq və pudinqə əlavə kimi bir-birinə uyğunsuz olurdu, ya da hədiyyə olunmuş konfet və peçenyelərin çiy olmasına bənzəyirdi. Sanki onları yeyirsən, amma dadında tamlığı hiss etmirsən, elə bil nəsə çatmır. Lakin bununla barışmalı olurduq. Bazar günlərimiz təxminən bu cür keçirdi, ən çox kilsəyə və ya məktəbdən bazar günü məşğələlərinə gedirdik. Yaxşı ki buna da hər vaxt tələb qoyulmurdu. Asudə gündəki gəzintilərimiz də necə əla keçsə belə, mütləq nəsə olurdu. Ya bacılarımla dalaşırdım, ya çox tez, ya da çox ləng addımlayırdım. Bəzən də paltarlarımı bulaşdırırdım.

Olsun.... Mən indi özümü çox yaxşı hiss edirdim. Dünəndən xeyli vaxt keçmişdi. Etdiyim axmaqlığı unutmamışdım, səhər tezdən xatirimdə idi. Amma elə bil ki o elə çoxdan olmuşdu, qorxular qəlbimdən uzaqlaşmışdı. Dünən mən çəkdiyim vicdan əzabıyla ağır və dəhşətli bir gün keçirməklə birazca günahımı yumuşdum. İndi mən yenidən gümrahlaşmışdım və özümə çox da əziyyət vermirdim. Düzü tam rahat və qayğısız deyildim, hələ də içimdə bazar gününün kefini qaraldan təhlükə hissi vardı.

Səhər yeməyi zamanı hamımız şən idik. Mənə kilsə və məktəbdəki bazar günü məşğələsi arasında seçim qoymuşdular. Hər zamanki kimi kilsəni seçdim. Heç olmasa orada adamı arada öz düşüncələri ilə rahat buraxırlar. Rəngbərəng şüşələri olan iri pəncərəli divarlar hündür və dəbdəbəli idi. Orqanın boruları uzaqdan uzun qalalı parlaq bir şəhərciyə bənzəyirdi. Həmdə ki kilsə adam çox olmayanda mən heç olmasa bir saat maraqlı bir hekayə oxuyurdum.

Bu gün özümlə oxumaq üçün kitab götürməmişdim, oradan qaçmaq fikrim də yox idi. Amma arada bir bu cür edirdim. Dünənki gün gözümdə o qədər canlıydı ki, mən ən xeyirxah niyyətlərdə idim. Və Allahla tam sülh şəraitində, dost olmaq istəyirdim. Veberə olan acığım da artıq keçmişdi. Əgər o indi gəlsəydi, mən onu gülərüzlə qarşılayardım.

İbadət başlandı, mən də xorla birlikdə dua oxuyurdum. Bu məktəbdə əzbər öyrəndiyimiz "Yorulmaz çoban" mahnısı idi. Oxuyan zaman mahnının əzbər söylədiyimiz şeir formasından fərqləndiyini hiss etdim. Şeir kimi dedikdə beytlərdəki sətirlər tam bir mənanı ifadə edirdi. Mahnı kimi oxuyanda isə sanki təkcə sözlərdən ibarət olurdu, cümlə, fikir əmələ gəlmirdi. Heç bir anlamı olmasa da, nəqarətdə uzada-uzada oxuduğumuz sözlər nəsə bir güclü, müstəqil bir həyata çevrilir, ayrı-ayrılıqda heç bir məna kəsb etməyən sətrlərsə özlüyündə müstəqillik və tam bir fikir yaradırdı. Məsələn, kilsədə oxunan "Yorulmaz çoban, gözlərini qırpmayan yuxusuz gözətçidir" bəndində heç bir məna yox idi və sən nə çoban, nə qoyunlar - heç nə barəsində düşünmürdün. Deyim ki, bu heç də darıxdırıcı deyildi. Ayrı-ayrı sözlər, xüsusilə də "yuxusuz" sözü sanki laylay kimiydi, "göz" sözü isə mənə sirli gəlirdi. Hələ orqanı demirəm!

Daha sonra növbə şəhər keşişinə və onun uzun sürən xütbəsinə çatdı. Mən bəzən onu zəngə bənzər danışıq səsi kimi, bəzən də ayrı-ayrı sözləri, mənaları ilə əsas məğzi itirmədən dinləyirdim. Kaş ki xorda kişilərin arasında oturmaq əvəzinə mehrabda oturaydım. Mehrabda oturmaq mənə bir neçə dəfə kilsə konsertlərində nəsib olmuşdu. Orada ağır, ayrıca, sanki bir kiçik qalaya bənzər oturacaqlarda əyləşirdilər. Başının üstündə qeyri adi gözəlliyə malik tinli, çıxıntılı, torşəkilli qübbə, yuxarı divarda isə yumşaq tonlarda dağ xütbəsi təsviri və daxilini incə bir sevinclə dolduran mavi fonda, qırmızı və göy geyimli İsanın görüntüsü vardı.

*Ardı var*

**Rus dilindən tərcümə edən: Xanım Aydın**